# Azərbaycan Respublikası
# Elm və Təhsil Nazirliyi

## Bakı Şəhəri üzrə
## Təhsil İdarəsi

TDM

Təlimə Dəstək Mərkəzi

# Seminarın məqsədi:

**Dərsin effektiv təşkilinin əsas xüsusiyyətlərini müəyyənləşdirir**

# İllik plan

# İllik planlaşdırma 3 əsas sütün üzərində qurulur:

1. Fənn üzrə sinfin sonu üçün **təlim nəticələri**
2. Təlim nəticəsində göstərilən bilik və bacarıqların formalaşmasına xidmət edən **altstandartlar**
3. Seçilən altstandartların reallaşmasını təmin edəcək **mövzular**

| № | Standart | Mövzu | Saat | Tarix | Qeyd |
|---|---|---|---|---|---|
| **I Yarımil** | | | | | |
| **1** | **-** | **Diaqnostik qiymətləndirmə** | **1** | | |
| **İbtidai icma quruluşu** | | | | | |
| **2** | 1.1.1. | Azərbaycan qədim ölkədir | **1** | | |
| **3** | 1.2.2. | Azərbaycan ərazisində Alt Paleolit dövrü | **1** | | |

**İl ərzində baş verəcək hər hansısa dəyişikliklərə çevik uyğunlaşmaq üçün, plana yerində dəyişikliklər etmək mümkündür. Bunun üçün qeyd yerindən istifadə edə bilərsiz.**

**Qeyd: Müəllim illik planda əsaslandırılmış hər hansısa bir dəyişiklik etdikdə, təkrar təsdiqə verməyə ehtiyac yoxdur.**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

Təlimə Dəstək Mərkəzi

# Gündəlik plan

**Dərsin gündəlik planı müəllimin məhsuldar dərs keçməsi və nəzərdə tutulan məqsədlərə çatması üçün ona bələdçi rolunu oynayır. Bu bələdçidən istifadə edərək müəllim, məzmunu şagirdlərə məntiqi ardıcıllıqla çatdıra bilir. Dərs planı həm də, bir növ, bir yol xəritəsidir ki, bizi hədəfə aparır. Planlı edilən istənilən fəaliyyətin daha yaxşı nəticələrə səbəb olduğunu gündəlik həyat təcrübələri də təsdiq edir.**

**Hər bir dərs illik plana uyğun olaraq müvafiq altstandartın reallaşmasına xidmət etməlidir.**

**Altstandart isə öz növbəsində şagirdlərdə hansı bilik və bacarığın formalaşdırılacağına qoyulan dövlət tələbidir.**

**QEYD:** Digər bütün tələblərin hamısı bu məqsədə xidmət etmək üçündür.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

TƏLİMƏ DƏSTƏK MƏRKƏZİ

**GÜNDƏLİK PLAN**

| | |
|---|---|
| Sinif/Tarix | |
| Altstandart | |
| Mövzu | |
| Məqsəd (Təlim nəticəsi) | |
| Qiymətləndirmə meyarı | |
| Resurs | |

**Dərsin gedişatının qısa təsviri**

| |
|---|
| Mövzuya maraq oyatma: |
| Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə): |
| Qiymətləndirmə / Refleksiya: |
| Ev tapşırığı: |

Təlimə Dəstək Mərkəzi

**Verilmiş gündəlik plan bir nümunədir. Digər formalarda, bir çox gündəlik plan nümunələri mövcuddur. Müəllim bu nümunələrin hər hansısa birinin seçimində sərbəstdir.**

# Verilən gündəlik plan nümunəsi iki hissədən ibarətdir

**GÜNDƏLİK PLAN**

| | |
|---|---|
| Sinif/Tarix | |
| Altstandart | |
| Mövzu | |
| Məqsəd (Təlim nəticəsi) | |
| Qiymətləndirmə meyarı | |
| Resurs | |

**1**

**Dərsin gedişatının qısa təsviri**

| |
|---|
| Mövzuya maraq oyatma: |
| Öyrənmə prosesi (bilik, bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə): |
| Qiymətləndirmə / Refleksiya: |
| Ev tapşırığı: |

**2**

**1-ci hissə - başlıqlara uyğun olaraq müvafiq xanalar doldurulmalıdır.**

**2-ci hissə - dərs boyunca icra ediləcək fəaliyyətlərin xülasəsi qısaca qeyd edilir.**

# 1-ci hissə

GÜNDƏLİK PLAN

| | |
|---|---|
| Sinif/Tarix | |
| Altstandart | |
| Mövzu | |
| Məqsəd (Təlim nəticəsi) | |
| Qiymətləndirmə meyarı | |
| Resurs | |

1. altstandartı müəyyən edirik
2. Altstandart seçildikdən sonra onu reallaşdıracaq mövzunu qeyd edirik
3. altstandart və mövzumuzun əhatə dairəsinə uyğun olaraq dərsin məqsədini müəyyən edirik
4. Məqsədə xidmət edən qiymətləndirmə meyarlarının çıxarılması (meyarlar altstandartların sayından az olmamalıdır)
5. Resurslar bölməsinin yazılması mövzuya və dərsin strukturuna görə dəyişə bilər

**QEYD:** Resurslar məktəbin yerli şəraitinə uyğun seçilməlidir.

# 2-ci hissə



Dərsin gedişatının qısa təsviri

Mövzuya maraq oyatma:

**Bu hissədə şagirdlərin dərsə cəlb edilməsi üçün hər hansısa bir fəaliyyət qeyd edilməlidir. Məqsəd şagirdlərin ilkin bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqə qurmaq, mövzuya maraq oyadaraq onları öyrənməyə sövq etməkdir.**

Öyrənmə prosesi (bilik və bacarıqların formalaşdırılması):

**Müəllim burada şagirdlərə mövzunu mənimsətmək üçün ardıcıl olaraq hansı təlim strategiyalarından necə istifadə edəcəyini qeyd etməlidir.**

**Öyrənmə prosesi (bilik, bacarıqlarn formalaşdırılması və formativ qiymətləndirmə):**

**Bu bölmədə xüsusi nəzərə almaq lazımdır ki, hər bir fəaliyyətin ardınca şagirdlərin nə dərəcədə mənimsədiyini müəyyənləşdirmək üçün formativ qiymətləndirmə üsulu kimi hər hansı bir tapşırıqdan istifadə edilməlidir.**

# 2-ci hissə



**Qiymətləndirmə:**

**Bu hissədə məqsədə nə dərəcədə çatdığımızı yoxlamaq və şagirdlərə dolğun rəy verə bilmək üçün qiymətləndirmə üsul və vasitlərini (sual-cavab, refleksiya, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə, qiymətləndirmə meyarları və s.) qeyd edirik**

**Ev tapşırığı:**

**Ev tapşırığı bölməsinin yazılması mövzuya və dərsin strukturuna görə dəyişə bilər. Ev tapşırığının verilib-verilməməsi situasiyadan asılı olan bir məsələdir. Tapşırığın verilməsi qədər onun yoxlanılabilən olması, şagirdlərin tapşırıqları yerinə yetirmə imkanları nəzərə alınmalıdır.**

**Qeyd: Hər dərs üçün ev tapşırığının verilməsi mütləq deyil**

# Bilməyimiz yaxşıdır

Məqsəd dərsin əvvəlində şagirdlərə mütləq elan edilməlidir. Şagirdlərin diqqətinin cəlb edilməsi və unudulmaması üçün lövhədə yazılması tövsiyyə olunur. Bundan sonra hər hansı bir fəaliyyətlə dərsə başlanılır.

# Gündəlik planın yazılı nümunəsi

## GÜNDƏLİK PLAN

| | |
|---|---|
| **Sinif/Tarix** | **Azərbaycan tarixi 9-cu sinif** |
| **Altstandart** | 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir<br>2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir |
| **Mövzu** | Erməni işğalçılarına qarşı mübarizə |
| **Məqsəd (Təlim nəticəsi)** | 1918-ci ildə qonşu dövlətlərin strateji maraqları ilə Azərbaycanın mövqeyini dəyərləndirir<br>1918-ci ildə ermənilərə güzəştə gedilmiş tarixi Azərbaycan torpaqlarını xəritədə təsvir edir |
| **Qiymətləndirmə meyarı** | Qonşu dövlətlərin hərbi və siyasi maraqları baxımından Azərbaycanın mövqeyini dəyərləndirir<br>Azərbaycanın ərazi bütövlüyündə baş verən dəyişikliyi xəritədə təsvir edir |
| **Resurs** | Dərslik, xəritə |

### Dərsin gedişatının qısa təsviri

**Mövzuya maraq oyatma:**

- Rəvan xanın Şah İsmayıla məktubu: Ulu şahım bizə hay tayfaları gəlirlər onlar özlərinə ufacıq kilsələr tikirlər və onların xidmətimizdə dayanmaq istəyən qadınları vardır. Şah cavab verir Rəvan xan onların ufacıq kilselerini böyütməyə və artırmağa qoymayın. Onların qadınları ilə qarşılıqlı nigaha girməyin.

"Əl əmareyi Şah İsmayıl" Dünyani bəzəyən Şah İsmayıl tarixi kitabından

XVI əsrdə yazılan bu məktuba necə münasibət bildirərdiz? Deyilənlərə əməl edilsəydi bu bizim tariximizə necə təsir edərdi?

**Öyrənmə prosesi (bilik və bacarıqların formalaşdırılması):**

- Dərsin məqsədini elan etmək
- XX əsrin əvvəllərində gedən mürəkkəb siyasi vəziyyət barədə mövzu ətrafında əsas məqamların izahı ilə giriş.
- 5 dəqiqə şagirdlərin mövzu ilə tanış olmalarına vaxt ayrılır.
- Qruplarla iş: "Debat" iş üsulu ilə
  Debat mövzusu: İrəvan o vaxt ermənilərə verilməliydimi yoxsa yox?
  1918-ci il hadisələri Azərbaycanın xəritəsində hansı dəyişikliklərə səbəb oldu?

  Debatın sonunda "müzakirə" üsulundan istifadə etməklə ümumiləşdirmə və qiymətləndirmə aparılacaqdır.

**Qiymətləndirmə: Müşahidə, sual-cavab.**

- ✓ Cənubi Qafqazda dövləti olmayan ermənilər necə oldu ki, dövlət qurdular?
- ✓ Baş verən hadisələrin fonunda Osmanlı dövləti hansı mövqeni sərgiləyirdi?
- ✓ Azərbaycan hökumətinin atdığı addımlar (hərbi və siyasi baxımdan) sizcə yetərliydimi?
- ✓ Qarabağ general-qubernatorluğunun yaradılması hansı nəticələr verdi?
- ✓ Araz-Türk respublikasının yaradılmasının nə kimi əhəmiyyəti var idi?
- ✓ Xəritədə baş verən dəyişiklikləri göstərin.

**Ev tapşırığı:**

Ermənilərin Azərbaycanla qonşuluq münasibətləri XXəsrin əvvəlində və XXI əsrin əvvəlində.
Araşdırın müqayisəli şəkildə təqdim edin.

# 1-ci hissə



## GÜNDƏLİK PLAN

| | | |
|---|---|---|
| Sinif/Tarix | Azərbaycan tarixi 9-cu sinif | |
| Altstandart | 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir<br>2.1.2. Mühüm tarixi hadisə və prosesləri kontur xəritələrdə təsvir edir | |
| Mövzu | Erməni işğalçılarına qarşı mübarizə | |
| Məqsəd (Təlim nəticəsi) | 1918-ci ildə qonşu dövlətlərin strateji maraqları ilə Azərbaycanın mövqeyini dəyərləndirir | |
| | 1918-ci ildə ermənilərə güzəştə gedilmiş tarixi Azərbaycan torpaqlarını xəritədə təsvir edir | |
| Qiymətləndirmə meyarı | Qonşu dövlətlərin hərbi və siyasi maraqları baxımından Azərbaycanın mövqeyini dəyərləndirir | |
| | Azərbaycanın ərazi bütövlüyündə | baş verən dəyişikliyi xəritədə təsvir edir |
| Resurs | Dərslik, xəritə | |

**Altstandartların gerçəkləşdirilməsi üçün müəyyən edilən mövzuya əsasən məqsəd çıxarılır. Bir altstandartdan bir və ya bir neçə məqsəd çıxarıla bilər. Lakin iki altstandarta bir məqsəd çıxarıla bilməz.**

**Verilmiş altstandartların gerçəkləşdirilməsi zamanı istifadə ediləcək resurslar yazılmalıdır**

# 2-ci hissə



## Dərsin gedişatının qısa təsviri

**Mövzuya maraq oyatma:**

- Rəvan xanın Şah İsmayıla məktubu: Ulu şahım bizə hay tayfaları gəlirlər onlar özlərinə ufacıq kilsələr tikirlər və onların xidmətimizdə dayanmaq istəyən qadınları vardır. Şah cavab verir Rəvan xan onların ufacıq kilselerini böyütməyə və artırmağa qoymayın. Onların qadınları ilə qarşılıqlı nigaha girməyin.

"Əl əmareyi Şah İsmayıl" Dünyani bəzəyən Şah İsmayıl tarixi kitabından

XVI əsrdə yazılan bu məktuba necə münasibət bildirərdiz? Deyilənlərə əməl edilsəydi bu bizim tariximizə necə təsir edərdi?

**Bu bölməni dərsə giriş də adlandıra bilərik. Burada, şagirdlərə real həyatla əlaqəli olan, və ya mövzuya aparan hər hansısa hekayə, aforizm və sair maraq oyadan, onları düşünməyə vadar edən fəaliyyət qeyd edilməlidir.**

**Qeyd:** Müəllim dərs prosesində şagirdlərdən gələn fikirləri düzgün yönləndirərək gözlədiyi cavabı almalıdır.

**Öyrənmə prosesi (bilik və bacarıqların formalaşdırılması və formativ qiymətləndirmə):**

- Dərsin məqsədini elan etmək və mahiyyətini izah etmək
- XX əsrin əvvəllərində gedən mürəkkəb siyasi vəziyyət barədə əsas məqamların izahı ilə giriş.
- şagirdlərin mövzu ilə qısa şəkildə tanış olurlar. Mövzu əvvəlki dərs araşdırılmaq üçün şagirdlərə tapşırılmışdı.
- Xəritə (kontur xəritə olsa daha yaxşı olar) üzərində bəhs olunan ərazinin yerinin müəyyənləşdirilməsi. Şagirdlərə fərdi işləmək üçün iş vərəqi paylanılır. *Qarşılıqlı dəyərləndirmə aparılır (formativ qiymtləndirmə).*
- Sual-cavab (formativ qiymətləndirmə kimi)
  - ✓ Cənubi Qafqazda dövləti olmayan ermənilər necə oldu ki, dövlət qurdular?
  - ✓ Baş verən hadisələrin fonunda Osmanlı dövləti hansı mövqeyi sərgiləyirdi?
  - ✓ Azərbaycan hökumətinin atdığı addımlar (hərbi və siyasi baxımdan) hansılar idi?
  - ✓ Qarabağ general-qubernatorluğunun yaradılması hansı nəticələr verdi?
  - ✓ Araz-Türk respublikasının yaradılmasının nə kimi əhəmiyyəti var idi?
- Qruplarla iş: "Debat" iş üsulu ilə

  Debat mövzusu: İrəvan ərazisi ermənilərə verilməyə bilərdimi?

  Debatın sonunda "müzakirə" üsulundan istifadə etməklə ümumiləşdirmə və qiymətləndirmə aparılacaqdır (müşahidə və müzakirə formativ qiymətləndirmə üsulu kimi).

**Bu bölməni məqsədə gedən yol adlandıra bilərik. Burda aparılan qeydlər dərsin gedişatının qısa təsvirini özündə əks etdirməlidir.**

---

**Fəaliyyətlərin adı, fəaliyyətə ayrılacaq vaxt, açar sözlər, vacib məqamlar və sair bu kimi qeydlər aparılmalıdır.**

---

**Fəaliyyətlərin geniş təsvirinə ehtiyac yoxdur.**

## Qiymətləndirmə:

Dərs boyu aparılmış müşahidələr əsasında şagirdlərə konstruktiv rəylər verilir.

Refleksiya: 3-2-1 üsulu

**Qiymətləndirmə özü də məqsədə xidmət etməlidir. Dərs boyu istifadə edəcəyiniz qiymətləndirmə üsullarının adı qeyd edilir. Yekun qiymətləndirmənin təsviri (meyarlar, suallar və s.) tam verilməlidir.**

# Ev tapşırığı:

Ermənilərin Azərbaycanla qonşuluq münasibətləri XXəsrin əvvəlində və XXI əsrin əvvəlində. Araşdırın müqayisəli şəkildə təqdim edin.

**Ev tapşırığı yaradıcı olmalıdır və şagirdi araşdırmaya sövq etməlidir.**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi

TDM
Təlimə Dəstək Mərkəzi

AZ 1007, Azərbaycan Respublikası, Bakı şəhəri, Xan Şuşinski – 17

www.tdm.edu.az

info@tdm.edu.az

telimedestek@gmail.com

www.fb.com/tdm.edu.az

# Diqqətinizə görə təşəkkür edirik